**BEYNƏLXALQ ƏLAQƏLƏR SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT**

## 1. Təqaüdlər hesabına xaricdə təhsil

2012-ci ildə ikitərəfli razılaşmalar və müxtəlif ölkələrin Azərbaycan vətəndaşlarına ayırdığı təqaüdlər çərçivəsində gənclərimizin dövlət xətti ilə Türkiyə, Rusiya, Çin, Koreya, Misir, Çexiya və Slovakiya Respublikası ölkələrində müxtəlif pillələr üzrə təhsil almağa göndərilməsi davam etdirilmişdir. Göndərilən tələbə kontingentinin sayına görə isə Türkiyə və Rusiya üstünlük təşkil edir.

2000-ci ilin dekabrında imzalanmış Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Türkiyə Respublikası Milli Təhsil Nazirliyi arasında təhsil və elm sahələrində əməkdaşlıq haqqında Protokolun 1, 2 və 4-cü maddələrinə əsasən azərbaycanlı gənclərin Türkiyənin ali məktəblərində dövlət xətti ilə təhsil almaları üçün Türkiyə dövləti Azərbaycan Respublikası vətəndaşlarına kvota ayırır.

Hazırda dövlət xətti ilə Türkiyə ali məktəblərində 445 Azərbaycanlı gənc təhsil alır.

2002-ci ilin fevralında imzalanmış «Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Rusiya Federasiyası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında» Protokol çərçivəsində 2012-2013-cü tədris ilində Rusiyanın Azərbaycan vətəndaşları üçün ayırdığı təqaüdlər hesabına bu ölkənin ali məktəblərində müxtəlif pillələr üzrə təhsil almağa daha 21 nəfər azərbaycanlı gənc qəbul olunmuşdur (onlardan 8 nəfəri Ümumrusiya Azərbaycan Konqresi tərəfindən göndərilmişdir) .

Hazırda 242 azərbaycanlı gənc Rusiya ali məktəblərində müxtəlif pillələr üzrə dövlət xətti ilə təhsil alır.

Tələbələrimizin Çin Xalq Respublikasının (ÇXR) ali məktəblərində təhsil alması 2002-ci ilin iyun ayında ÇXR Təhsil Nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasından imzalanmış Saziş çərçivəsində həyata keçirilir. ÇXR universitetlərində 2012-2013-cü tədris ilində Təhsil Nazirliyinin xətti ilə 23 bakalavr, 3 magistratura pilləsində olmaqla 26 nəfər təhsil alır. Magistraturada təhsil alanlar bakalavr təhsilini də Çində başa vurmuşlar.

2008-ci ildə Təhsil Nazirliyi tərəfindən ilk dəfə olaraq Koreya Respublikasına təhsil almaq üçün 7 nəfər, 2009-cu ildə isə 1 nəfər tələbə göndərilmişdir. Hazırda Koreyada 1 nəfər Azərbaycanlı gənc dövlət xətti ilə təhsini davam etdirir.

Beləliklə, müxtəlif ölkələrin Azərbaycana ayırdığı təqaüdlər çərçivəsində bu ölkələrin ali məktəblərinin bakalavr, mütəxəssis, magistr, doktorantura, tibdə uzmanlıq və aspirantura səviyyələrində təhsil almaq üçün 719 nəfər Azərbaycan Respublikası vətəndaşı göndərilmişdir.

Hazırda öz hesabına və müxtəlif mübadilə proqramları çərçivəsində isə 5000-dən artıq tələbə respublikamızdan kənarda təhsilini davam etdirir.

Təqaüdlər hesabına xaricdə təhsil alanlarla işin idarə olunması ilə bağlı hesabat dövründə aşağıdakı işlər görülmüşdür:

2. sektorun əməkdaşları tərəfindən xaricdə dövlət xətti ilə təhsil alan tələbə, aspirant və doktorantların «Tələbə elektron proqramı»na daxil edilməsi, hər birinə aid müvafiq şəxsi vərəqənin doldurulması;

3. İldə iki dəfə (qış və yay sessiyalarından sonra) tələbələrimizin ali məktəb və xarici ölkələrdəki səfirliklərimiz vasitəsi ilə göndərilmiş arayışlarının toplanması və təhlili. Müvəffəqiyyətsiz tələbələrə qarşı müvafiq tədbirlərin görülməsi;
4. Xaricdə dövlət xətti ilə təhsil alan tələbə, aspirant və doktorantların təhsil aldıqları ölkə, ali məktəb, ixtisas və kurslar üzrə (ev ünvanlarını və əlaqə vasitələrini qeyd etməklə) siyahılarının və statistik materiallarının hazırlanması;
5. Xaricdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin aylıq təqaüdlərinin verilməsi üçün müvafiq siyahıların hazırlanması və onların təqaüdlə təmin olunması üçün lazımi tədbirlərin görülməsi;
6. Xaricdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin illik qeydiyyatlarının aparılması;
7. Xaricdə dövlət xətti ilə təhsil alan və müxtəlif səbəblərə görə təhsil aldıqları ölkənin müvafiq nazirliyi tərəfindən təqaüdləri kəsilən azərbaycanlı tələbələrin xarici ölkələrdə təhsil alanların siyahısından çıxarılması üçün təqdimat və əmrlərin hazırlanması;
8. Yay tətili dövründə xaricdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin qeydiyyatı zamanı toplanmış məlumatların şəxsi vərəqələrdə və elektron bazada yenilənməsi;
9. Yeni elektron bazanın yaradılması və istifadəyə verilməsi;
10. Türkiyə Respublikası və Rusiya Hökumətlərinin 2012-2013-cü tədris ili üçün Azərbaycana ayırdıqları təqaüdlərə uyğun olaraq bu ölkələrin ali məktəblərinə qəbul və 2011-2012-ci tədris ilində TÖMƏR hazırlığına göndərilmiş tələbələrin universitetlər üzrə yerləşdirilməsi ilə bağlı əlaqədar strukturlarla yazışmaların hazırlanması, qəbul olunanlara aid müvafiq əmrlərin hazırlanması, onların qeydiyyata alınması, sənədlərin toplanıb müvafiq ölkələrin Təhsil nazirliklərinə göndərilməsi, yeni tələbələrin Təhsil nazirinin müavini ilə görüşlərinin təşkil edilməsi və onların təhsil yerlərinə yola salınması;
11. Xaricdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrin təhsillərinə aid müvafiq arayışların (10 saylı və «tələb olunan yerə») hazırlanması və tələbələrə təqdim edilməsi;
12. Türkiyə Respublikası Milli Təhsil Nazirliyi və təhsillə əlaqədar qurumları ilə əlaqələrin qurulması, bu strukturlarla aparılan yazışmaların hazırlanması, onların nümayəndələrinin Azərbaycana gəldikləri zaman tədbirlərin təşkili və keçirilməsi;
13. Xaricdə təhsil almaq hüququ əldə etmiş, təhsillə bağlı müxtəlif yarışlarda iştirak etməli olan 18 yaşına çatmayan vətəndaşlara ümumvətəndaşlıq pasportu verilməsi üçün Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Pasport-Qeydiyyat və Miqrasiya Xidməti İdarəsi və Regionlardakı şöbələrinə müvafiq məktubların hazırlanması;
14. Xidməti vəzifəsi ilə əlaqədar olaraq və ya xaricdə müxtəlif konfranslarda iştirak etmək məqsədilə xidməti pasport almaq üçün müxtəlif vəzifəli şəxslərə Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinə təqdim etmək üçün məktubların hazırlanması;
15. Respublikamızın müvafiq strukturlarından və vətəndaşlardan Təhsil Nazirliyinə daxil olmuş məktub və ərizələrdə qeyd olunan məsələlərin araşdırılması, müvafiq tədbirlərin görülməsi və nəticəsi barədə ünvanlara cavabların yazılması (1000-dək).

Hər il olduğu kimi, 2012-ci ilin iyul-avqust-sentyabr aylarında dövlət xətti ilə xarici ölkələrin ali məktəblərində təhsil alan tələbələrin nazirliyin rəhbərliyi ilə görüşü keçirilmişdir.

Eyni zamanda Nazirlər Kabineti tərəfindən qəbul edilmiş müvafiq qərarlara əsasən iyun ayından oktyabr ayının sonuna qədər xarici ölkələrin ali məktəblərində təhsil alan tələbələrin vətənə gəlməsi və təhsil yerinə dönmələri üçün aviabiletlərlə təmin olunması işləri həyata keçirilmişdir.

Türkiyə Respublikasının təhsil və tələbə mübadiləsi sahəsində fəaliyyət göstərən qurumları arasında baş vermiş struktur dəyişikliyi ilə əlaqədar olaraq ölkələrimiz arasında bu sahələrdə əməkdaşlığın yeni prioritetlərini müəyyənləşdirmək, Türkiyə Respublikası Başbakanlığı yanında Yurtdışı Türklər və Əqrəba Topluluqları Başqanlığı, Türkiyə Respublikası Milli Təhsil Nazirliyi və Türkiyə Respublikası Yüksək Öyrətim Kurulunun rəhbərliyi ilə görüşlərin keçirilməsi, eyni zamanda Türkiyənin müxtəlif ali təhsil müəssisələrindən məzun olan azərbaycanlı tələbələr üçün Türkiyədəki Səfirliyimizin təşkil etdiyi “məzuniyyət törəni”ndə iştirak etmək məqsədilə nazirliyin nümayəndə heyəti 6 gün müddətinə Ankara şəhərinə ezam olunmuşdur.

Cari ilin sentyabr-oktyabr aylarında xarici ölkələrin ayırdığı təqaüdlər hesabına ali məktəblərin müxtəlif pillələrinə qəbul olunan tələbələrin şəxsi vərəqəsi doldurulmuş və məlumatlar şöbənin məlumat bazasına yerləşdirilmişdir.

**Xarici ölkələrdə dövlət xətti ilə təhsil alan azərbaycanlı tələbələrə aid statistik**

**MƏLUMAT**
**(28.11.2012)**

| № | Ölkənin Adı | Tələbənin ümumi sayı | Bakalavr/ Mütəxəssis | Magistratura | Klinik ordinatura/ Rezidentura | Aspiran-tura | Dokto-rantura |
|---|---|---|---|---|---|---|---|
| 1. | Türkiyə Respublikası | 445 | 236/ | 36 | /87 | - | 86 |
| 2. | Rusiya Federasiyası | 242 | 92/145 | 2 | 1/ | 2 | - |
| 4. | Misir Ərəb Respublikası | 3 | 3/ | - | - | - | - |
| 5. | Çin Xalq Respublikası | 26 | 23/ | 3 | - | - | - |
| 6. | Çexiya Respublikası | 1 | 1/ | - | - | - | - |
| 7. | Slovakiya Respublikası | 1 | /1 | - | - | - | - |
| 8. | Koreya Respublikası | 1 | 1/ | - | - | - | - |
| Cəmi | | 719 | 356/146 | 41 | 1/87 | 2 | 86 |

**3. «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın icrası.**

Azərbaycan Respublikası Prezidentinin 16.04.2007-ci il tarixli, 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın icrası ilə bağlı Beynəlxalq əlaqələr şöbəsi tərəfindən aşağıdakı işlər görülmüşdür.

1. Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almaq istəyənlər üçün müvafiq sənəd qəbulunun təşkili, seçilmiş uğurlu tələbələrin adlarının Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyaya təqdim olunması.

2. Xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş Azərbaycan Respublikası vətəndaşlarına aid əmrlərin hazırlanması, onların qeydiyyatı, təhsili və məişətləri ilə bağlı müvafiq tədbirlər görülməsi.

3. Onların müvafiq qaydada qeydiyyata alınması («Tələbə» elektron proqramına daxil edilməsi və şəxsi vərəqələrin doldurulması).

4. Təhsillə bağlı maliyyələşdirmə sənədlərinin hazırlanması və mütəmadi olaraq nazirliyin İqtisadiyyat şöbəsinə təqdim edilməsi (ilboyu).

2012-2013-cü tədris ili-Dövlət Proqramının icrasının "6-ci" ilində ötən illərdən fərqli olaraq Proqramın icrasında məzmun və forma baxımından müəyyən mütərəqqi dəyişikliklər baş vermişdir:

1. ***prioritetlər haqqında məlumatlar qabaqcadan ictimaiyyətə çatdırılmış;***
2. ***sənəd qəbulu üçün kifayət qədər vaxt - 01.05.2012-20.08.2012 ayrılmış;***
3. ***elektron ərizə formasının tətbiq olunmuş;***
4. ***yeni elektron baza yaradılmış;***
5. ***DP-nın saytı bütöv formatda yenilənmişdir.***

"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 23.05.2011-ci il tarixli, 429 saylı Fərmanı" bu işi daha da surətləndirdi və layihənin uğurla həyata keçirilməsini reallaşdırdı.

Bununla yanaşı Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrlə bağlı müvafiq sənədləşmə işlərinin aparılması, materialların istifadə edilməsi, qorunması və ümumilikdə bu işin daha çevik idarəedilməsi məqsədilə bütün parametrlər üzrə **"Yeni Elektron Baza"** yaradılmışdır.

Cari tədris ilində elektron ərizə ilə müraciət edənlərin sayı 1000 nəfərə yaxın, ərizələrini nazirlikdə təsdiq etdirənlərin sayı isə 700-dən çox olmuşdur. Qəbul olunduqları ixtisasların proqramın prioritetlərinə uyğunsuzluğu və həqiqi hərbi xidmətdən möhlət hüququ olmaması səbəbindən ərizəçilərin müəyyən hissəsinin qeydiyyatı nazirlikdə təsdiq olunmamışdır

Təsdiqlənmiş ərizələrin statistikasına görə ən çox müraciət olunan ixtisas istiqamətləri - tibb, iqtisadiyyat, mühəndislik, İKT, ən az müraciət olunan istiqamətlər isə texniki elmlər, kənd təsərrüfatı və s. olmuşdur.

Dövlət Proqramının 6-ci ilində xaricdə təhsil almaq hüququ qazananların sayı proqramın icra tarixində ilk dəfə olaraq 600 nəfərdən artıq olmuş və 20 illik müstəqilliyini qeyd edən Azərbaycan Respublikasının daha sürətli və dinamik inkişafına töhfə vermək məqsədilə ehtiyac duyulan ixtisaslar üzrə kadr hazırlığı siyasəti davam etdirilmişdir.

2011-2012-ci tədris ilində təhsil almağa göndərilən tələbələrin ölkələr üzrə siyahısındakı ilk 3 yeri - Böyük Britaniya, qardaş Türkiyə və Almaniya tutmuşdur.

Dövlət Proqramı çərçivəsində tələbələrimizin təhsil almaq üçün göndərildiyi ölkələrin 6 illik dinamikasına nəzər yetirsək görərik ki, 2007-ci ildə ən çox tələbə Rusiya, 2012-ci ildə isə Böyük Britaniyaya göndərilmişdir. Almaniya, Kanada, Rusiya və Türkiyədə təhsil almaq hüququ qazanan tələbələrimizin say dinamikası yüksələn xətt üzrə inkişaf edir.

Dövlət Proqramının tədbirlər planına əsasən mütəmadi olaraq dövlət qurumları, Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklər, eləcə də Azərbaycanın xaricdəki diplomatik nümayəndəlikləri tərəfindən Azərbaycan Respublikası Prezidenti yanında Təhsil üzrə Komissiyanın müvafiq Sərəncamları ilə "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na təklif olunan ali məktəblərin adlarının əlavə edilməsi ilə bağlı müraciətlər daxil olur. Təhsil Nazirliyi təklif olunan ali məktəblərin reytinqi, tədris olunan təhsilin səviyyəsi və keyfiyyəti, konkret ixtisaslar üzrə ixtisaslaşmanın keyfiyyəti və s. göstəricilər əsasında mütəmadi olaraq araşdırma aparır və məqbul hesab etdiyi təkliflər barədə Təhsil üzrə Komissiyaya müraciətlər edir. Hesabat ilində nazirliyin müvafiq təklifi əsasında sözügedən siyahıya 50-yə yaxın universitetin adı əlavə edilmişdir. Bunların arasında Latviya, Litva, Estoniya və Belarus universitetlərinin adları da vardır.

Hazırda gənclərimizin böyük əksəriyyəti xarici ali məktəblərdə tibb, iqtisadiyyat və idarəetmə ixtisas istiqamətləri üzrə təhsil alanlardır. Onu da qeyd etmək lazımdır ki, 2012-2013-cü tədris ilindən etibarən mühəndislik, İKT, neft sənayesi və digər bu kimi sahələrin prioritet istiqamətlər elan olunduqdan sonra bu ixtisaslar üzrə təhsil alanların sayı artmışdır. Eyni zamanda respublikamız üçün çox ehtiyac duyulan riyaziyyat, fizika, kimya, biologiya, kənd təsərrüfatı və ekologiya sahələri üzrə xaricdə təhsil almaq istəyənlərin sayı arzuolunan səviyyədə deyil. Problemin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Bu qəbildən görülən işlərə nümunə olaraq Dövlət Proqramı çərçivəsində xaricdə təhsillə bağlı reallaşdırılmış xüsusi layihələri misal göstərmək olar. Onlardan biri Moskva Fizika Texniki Universiteti ilə imzaladığı memorandum əsasında Bakı Dövlət Universitetinin 2 bakalavr, 1 magistratura səviyyəsində olmaqla hər il 3 nəfərin həmin təhsil ocağına göndərilməsi layihəsidir.

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan tələbələrin təhsillərinə Təhsil Nazirliyi tərəfindən ciddi nəzarət edilir. Belə ki, hər tədris ilinin sonunda tələbələr akademik göstəricilərini özündə əks etdirən sənədləri (transkriptlər) nazirliyə təqdim etməklə müvafiq hesabat verirlər. Həmin sənədlər nazirlikdə ciddi araşdırılır və akademik müvəffəqiyyətsizliklər aşkar edildiyi təqdirdə yaranmış nöqsanlar aradan qaldırılana qədər həmin tələbələrin təhsillərinin maliyyələşdirilməsi dayandırılır. Eyni zamanda, yerlərdə də tələbələrlə mütəmadi görüşlər, konfranslar, simpoziumlar, seminarlar təşkil olunur. Belə ki, 2011-2012-ci illərdə müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət heyət Fransa, Böyük Britaniya və Almaniyada təşkil etdikləri tədbirlərdə tələbələrin təhsili və məişət şəraitləri ilə yaxından tanış olmuş, yaranmış çətinliklərin aradan qaldırılması üçün təkliflər irəli sürülmüşdür.

Bunlarla yanaşı, hər il yay tətili dövründə Təhsil Nazirliyində nazirliyin rəhbərliyinin tələbələr, aidiyyatı nazirliklər və qurumların nümayəndələri ilə görüşü təşkil edilir. Bu görüşlərdə müvafiq qurumların rəhbər şəxsləri tələbələrin təklif və istəklərini dinləyir, sualları cavablandırırlar.

Bu da onu göstərir ki, ölkədə xarici ali məktəblərin qəbul şərtlərinə və standartlarına cavab verən kifayət qədər abituriyent və tələbə vardır. Bu meyar isə ölkədə təhsil sahəsində aparılan islahatların, ölkədəki təhsilin səviyyəsindəki irəliləyişlərin və s. faktorların bariz nümunəsidir və Azərbaycan təhsilinə qara yaxanlara tutarlı cavabdır. Hazırda 1276 nəfər təhsil alır, bunların da 71 nəfərinin təhsilinin maliyyələşdirilməsi dayandırılmışdır. Həmin tələbələrin bəziləri akademik uğursuzluqlarını aradan qaldıranadək öz hesablarına təhsil alacaq, bəzilərinin isə artıq məzun olub-olmamağı barədə informasiyalar dəqiqləşdirilir.


2012/2013-cü TƏDRİS İLİ ÜÇÜN ELEKTRON ƏRIZƏ QƏBULU BARƏDƏ STATİSTİK GÖSTƏRİCİLƏR
968
712
elektron ərizə ilə müraciət edənlər
elektron ərizələri təsdiqlədənlər


Ərizələrini nazirlikdə təsdiqlətmişlərin ixtisas sahələri üzrə bölgüsü
biologiya; 1%
fizika; 1%
informasiya texnologiyaları; 12%
kənd təsərrüfatı; 1%
kimya; 1%
mühəndislik; 13%
nanotexnologiyalar 2%
neft sənayesi; 3%
riyaziyyat; 1%
tibb; 29%
turizm; 9%
iqtisadiyyat 28%

**2012/2013-cü tədris ilində**
**“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”**
**çərçivəsində təhsil alan tələbələrə dair**
**ölkələr üzrə statistika**




Dövlət Proqramı çərçivəsində gənclərimizin təhsil aldığı ilk sıralarda yer almış ölkələrin 6 illik say dinamikası
2007
2008
2009
2010
2011
2012
10
16
51
52
103
133
4
21
46
56
84
144
1
11
24
52
54
18
8
16
20
23
7
5
27
89
47
97
153
2
6
13
13
9
10
13
27
26
6
7
20
Türkiyə
Almaniya
Kanada
Rusiya
Böyük Britaniya
Niderland
Fransa

## 2012/2013-cü tədris ilində Dövlət Proqramı çərçivəsində təhsil alanların ixtisas sahələri üzrə statistikası



Dövlət Proqramı çərçivəsində xaricdə təhsilini başa vurmuş gənclərimizin işlə təmin olunması üçün Təhsil Nazirliyinin rəhbərliyi ilə bir neçə dövlət qurumlarının (Gənclər və İdman Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya) əməkdaşlarından ibarət Komissiya təşkil olunmuşdur. Bu Komissiya tərəfindən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair Dövlət Proqramı" çərçivəsində məzun olmuş Azərbaycan Respublikası vətəndaşlarının işlə təmin olunması qaydaları" layihəsi hazırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu məsələləri üzrə Komissiya, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən edilmiş təkliflər nəzərə alınaraq layihənin yekun mətni AR Nazirlər Kabinetinə təqdim edilmişdir. DP məzunlarının hesabatları, diplom və ona əlavələrin surətləri mütəmadi olaraq qəbul edilir.

Bu gün Dövlət Proqramı çərçivəsində xaricdə təhsilini başa vurmuş 500-dən artıq Dövlət Proqramı məzununun müəyyən hissəsi təhsilini növbəti səviyyədə davam etdirir, digərləri isə ölkəmizdə müxtəlif dövlət qurumlarında və özəl sektorda çalışmaqdadır.



**3. Əcnəbi tələbələrin Azərbaycan ali məktəblərində təhsili.**

Azərbaycan Respublikası ali məktəblərində əcnəbi vətəndaşlar bakalavr, magistratura və aspiranturada dövlət hesabına və ya ödənişli əsaslarla təhsil alır.

Azərbaycan ali məktəblərində xarici ölkələrdən təhsil alan əcnəbi tələbələrin çoxu hər il olduğu kimi Türkiyə Respublikası, Rusiya Federasiyası, İran İslam Respublikası və Çin Xalq Respublikasından gələn tələbələrdir. Onlarla əlaqədar işin idarə olunması ilə bağlı hesabat dövrünə aşağıdakı işlər daxildir:

1. Respublikamızın 23 ali məktəbində təhsil alan əcnəbilər haqqında toplanmış məlumatların "Respublikamızın ali məktəblərində təhsil alan əcnəbi tələbələrin məlumat bazası"na yerləşdirilməsi;

2. Əcnəbi vətəndaşların ümumi siyahısının və statistik məlumatlarının hazırlanması;

3. Dövlət xətti ilə təhsil alan tələbələrin illik qeydiyyatının aparılması;

4. İl ərzində müxtəlif səbəblərə görə ali məktəblərdən xaric olunmuş əcnəbi vətəndaşların qeydiyyatının aparılması, onlar haqqında müvafiq strukturlara məlumatların verilməsi;

5. Ali məktəblərə qəbul müddətinin bitməsindən sonra Əcnəbi tələbələrin (30 oktyabr) onların Azərbaycan Respublikasında müvəqqəti yaşamalarına icazə verilməsi üçün Azərbaycan Dövlət Miqrasiya Xidmətinə məktubların yazılması.

6. Tədris ilinin sonunda ali məktəblərin nəzdində fəaliyyət göstərən hazırlıq fakultə, mərkəz və şöbələrində buraxılış imtahanlarının keçirilməsi ilə bağlı məlumatların toplanması, müvafiq əmrin hazırlanması və imtahanların gedişinə nəzarət edilməsi;

7. Təhsil nazirinin müavinin rəhbərliyi ilə ali məktəblərin beynəlxalq əlaqələr üzrə prorektorları və əcnəbi tələbələrlə iş üzrə müvafiq qurum rəhbərlərinin müşavirələrinin keçirilməsi;

8. Xarici İşlər Nazirliyindən sektora daxil olmuş müvafiq sorğuların araşdırılması və cavabların yazılması (il ərzində);

9. Xarici ölkələrin Azərbaycandakı səfirliklərindən sektora daxil olmuş məktubların və sorğuların araşdırılması və müvafiq cavab məktublarının yazılması (il ərzində).

10. Azərbaycanın ali məktəblərinə dövlət xətti ilə qəbul olunmuş əcnəbi vətəndaşlara müvafiq "Göndəriş"lərin hazırlanması və çatdırılması;

11. İki ölkənin Təhsil nazirlikləri arasında mövcud olan Əməkdaşlıq haqqında İcra Proqramına əsasən respublikamızın ali məktəblərində dövlət xətti ilə təhsil alan İordaniya Haşimilər Krallığı və Türkiyə Respublikası vətəndaşlarının ali məktəblərə yerləşdirilməsi və onların təhsili ilə bağlı problemlərin həlli üçün ali məktəblərə müvafiq məktubların yazılması (il ərzində);

12.Respublikamızın müvafiq strukturlarından və vətəndaşlardan Təhsil Nazirliyinə daxil olmuş məktub və ərizələrdə qeyd olunan məsələlərin araşdırılması, müvafiq tədbirlərin görülməsi və nəticəsi barədə ünvanlara cavabların yazılması. Beynəlxalq Əlaqələr şöbəsinə müraciət edən vətəndaşların qəbulu (il ərzində).

Təhsil naziri müavininin və şöbə müdirinin cari tapşırıqlarının vaxtında və tələb olunan səviyyədə yerinə yetirilməsi.

**4.Təhsil Nazirliyinin тяряфдаш beynəlxalq təşkilatlarla təhsil sahəsində əməkdaşlığı.**

Beynəlxalq təhsil mübadilə proqramları ilə əməkdaşlıqda ötən ilin nəticələrinə nəzər saldıqda, nəzərəçarpacaq dinamikanı görə bilərik. Bu sahədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin əməkdaşlıq etdiyi ən böyük təşkilatlar Amerika Birləşmiş Ştatlarının ACCELS, IREX, Almaniyanın DAAD, habelə Açıq Cəmiyyət İnstitutunun Bakı Təhsil Məlumat Mərkəzi olmuşdur. Orta məktəblərin yuxarı sinif şagirdləri üçün Gələcək Liderlərin Mübadiləsi Proqramı (FLEX) çərçivəsində bu günədək *930 nəfərədək şagird bu proqramda iştirak etmişdir. 2012-ci ildə qeyd olunan proqram çərçivəsində 32 nəfər şagird ABŞ-a göndərilmişdir.*

1998-ci ildən ali məktəb tələbələri üçün nəzərdə tutulan UGRAD proqramında 250-dən artıq tələbə iştirak etmişdir. Edmund Maski Magistr Proqramında b*u günədək 280-dən artıq azərbaycanlı gənc iştirak etmişdir.*

Bununla yanaşı Gənc Müəllimlərin İnkişafı Proqramı (JFDP) İxtisaslı Müəllimlər üçün Mükafat Proqramı (TEA), Təhsildə Partnyorlar Proqramı (PİE) və s proqramları göstərmək olar.

Eyni zamanda 2003-cü ildən bu günədək Amerika Birləşmiş Ştatlarının təhsil sahəsində respublikamızda fəaliyyət göstərən daha bir təşkilatı olan Sülh Korpusunun (Peaje Jorp) 411 könüllüsü Azərbaycanda çalışmışlar. Bunların 231-i ingilis dilinin tədrisi üzrə, 73-ü gənclərin inkişafı və 107 nəfəri isə icmanın iqtisadi inkişafı üzrə çalışmışlar. Hazırda Sülh Korpusunun 56 nəfər könüllüsü Azərbaycanın müvafiq ümumi təhsil müəssisələrində ingilis dilinin tədrisi üzrə çalışırlar.

2012-ci ildə Təhsil Nazirliyinin müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı uğurla davam etdirilmişdir.

Azərbaycan Respublikasının təhsil sahəsində əməkdaşlıq etdiyi təşkilatlardan biri Avropa Şurasıdır. Azərbaycan və Danimarkanın Boloniya prosesində və Rumıniyada keçirilmiş Avropa ölkələri Təhsil Nazirlərinin konfransına sədrlik çərçivəsində 21 fevral 2012-ci il tarixində Bakıda Boloniya Prosesi üzrə İşçi Qrupun İdarəetmə Şurasının iclası keçirilmişdir. İclasda 18 xarici ekspert iştirak etmişdir. İclasın əsas məqsədi Avropa Vahid Ali Təhsil Məkanında mobillik strategiyası, Buxarestdə keçirilmiş Avropa ölkələri Təhsil Nazirlərinin iclasının Bəyənnaməsi, Belarus Respublikasının Avropa Ali Təhsil Məkanına qoşulması və cari ilin mart ayında Kopenhagendə keçirilmiş Boloniya prosesi üzrə işçi qrupunun iclasının gündəliyi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

5-6 iyun 2012-ci il tarixlərində Bakıda Azərbaycanın Boloniya prosesinə həmsədrliyi çərçivəsində Azərbaycan Respublikası Təhsil Nazirliyi, Avropa Şurası və Avropa Təhsil Fondunun birgə təşkilatçılığı ilə "Milli Kvalifikasiyalar Çərçivəsinin həyata keçirilməsi: problemlər və perspektivlər" mövzusunda beynəlxalq seminar keçirilmişdir.

Seminarın məqsədi Milli kvalifikasiyalar çərçivəsi sənədinin tətbiqi, həmçinin bu sahədə mövcud problemlərin və perspektivlərin müəyyənləşdirilməsi ilə bağlı məsələlərin müzakirəsidir. Seminarın nəticəsi olaraq iştirakçılar tərəfindən müvafiq tövsiyələrin hazırlanması nəzərdə tutulur.

22-23 noyabr 2012-ci il tarixində Strasburqda keçirilmiş Təhsil Nazirlərinin 2-ci regional iclası keçirilmişdir. Avropa Şurası tərəfindən təşkil olunan iclasda Azərbaycan Respublikasının, Rusiya Federasiyasının, Ukraynanın, Moldovanın, Gürcüstanın və Ermənistanın Təhsil Nazirləri və Nazir müavinləri iştirak etmişdir. İclasın əsas məqsədi Boloniya prosesinin tələblərinə uyğun olaraq yuxarıda göstərilən ölkələrdə ömürboyu təhsil

üzrə Milli ixtisas dərəcələrinin hazırlanması və həyata keçirilməsi ilə bağlı məsələlərin müzakirəsidir.

Avropa İttifaqı ilə təhsil sahəsində əlaqələr bir neçə proqram və layihələr çərçivəsində həyata keçirilir. Bu əlaqələr ikitərəfli səfərlər çərçivəsində həyata keçirilir.

9-10 fevral 2012-ci il tarixlərində Alt-komitənin Bakıda Avropa İttifaqı ilə razılaşdırılmış qaydada təhsil, gənclər, sosial məsələlər, mədəniyyət, audiovizual siyasət, səhiyyə, elm, texnologiya, innovasiya, tədqiqatla bağlı məsələlərin müzakirəsi məqsədi ilə ilk iclası keçirilmişdir.

Avropa İttifaqının Tempus, Erasmus-Mundus, Jan Mone, TAİEX, Tvininq və Siqma proqramları çərçivəsində əməkdaşlıq aparılmışdır.

***Tempus Proqramı çərçivəsində həyata keçirilmiş tədbirlər:***

Tempus proqramı (Universitetlər üçün Trans-Avropa Mobillik Proqramı) Avropa İttifaqının ali təhsil sahəsində yeni müstəqil dövlətlər - Qərbi Balkanlar, Avropa İttifaqına üzv olmayan Şərqi Avropa və Aralıq dənizi hövzəsi ölkələri ilə birgə həyata keçirdiyi əməkdaşlıq proqramıdır.

Təhsil Nazirliyinin Azərbaycanda Tempus Milli Ofisi ilə birgə ali təhsil ocaqlarımızı sözügedən proqramlarda daha fəal iştiraka təşviq etmək istiqamətində həyata keçirdiyi tədbirlər öz nəticələrini verməkdədir.

Tempus proqramı ali təhsil sisteminin müasir standartlara yüksəldilməsini dəstəkləyir və Avropa İttifaqı ilə tərəfdaş ölkələrdə əməkdaşlıq mühitini formalaşdırır.

1995-2011-ci illərdə Azərbaycanın ali təhsil müəssisələri Avropa İttifaqının 27 TEMPUS layihəsinin iştirakçısı olmuşlar. 2012-ci ildə Azərbaycanın ali təhsil müəssisələri 5 TEMPUS layihəsinin qalibi olmuşdur ki, nəticədə Azərbaycan universitetlərinin iştirak etdiyi Tempus layihələrinin sayı 32-yə çatdırılmışdır.

Avropa İttifaqının digər proqramı - ***Erasmus Mundus "Xarici əməkdaşlıq təşəbbüsü"*** proqramı ***2007-ci ildən*** Azərbaycanda fəaliyyətə başlamışdır. Bu təşəbbüs Avropa İttifaqı və tərəfdaş ölkələr arasında tələbə və akademik heyətin fərdi səfərlərini təmin etməklə ali təhsil sahəsində əməkdaşlığın inkişafını sürətləndirmək, ali təhsil müəssisələri səviyyəsində insanların bilik və bacarıqlarının mübadiləsi vasitəsilə Avropa İttifaqı və tərəfdaş ölkələr arasında faydalı əməkdaşlığı təmin etməkdir.

Bu günədək Azərbaycan universitetləri Avropa İttifaqının 11 Erasmus-Mundus layihələrinin qalibi olmuşlar. Yalnız 2012-ci ildə proqram çərçivəsində 8 layihə udulmuşdur. Bu layihələr çərçivəsində 300-dək Azərbaycanlı tələbə, magistr və doktorantların Avropa universitetlərində təcrübə keçməsi nəzərdə tutulmuşdur.

*Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti və Qafqaz Universiteti 2012-2013-cü tədris ili üzrə magistratura, doktorantura və tədqiqat üzrə Erasmus-Mundus proqramının qalibi olmuşlar. Layihənin ümumi dəyəri 3.3 mln avrodur.*

Azərbaycan Respublikası Təhsil Nazirliyi Avropa İttifaqının Tvininq və TAIEX proqramlarında iştirak edir. 2009-cu ildən etibarən bu günədək Təhsil Nazirliyi tərəfindən Avropa İttifaqına 10-dan artıq TAİEX və Tvininq layihəsi təqdim olunmuşdur və *2 tvinninq və 4 TAİEX* layihəsi qazanılmışdır.

Avropa İttifaqının (Aİ) *TAİEX proqramı çərçivəsində* çərçivəsində icra edilən layihələr:

- *Peşə təhsili və təlimi sahəsində islahatlar strategiyası və Azərbaycanda seçilmiş rayonda pilot icrası* (2009)
- *İnklyuziv təhsil üzrə təlim səfəri* (16-20 yanvar 2012)

- *“Avropa İttifaqının TAİEX proqramı çərçivəsində Azərbaycanın ali təhsil sisteminin tənzimlənməsi üzrə mövcud qanunvericiliyin qiymətləndirilməsi”* üzrə seminar *(* 30 yanvar - 3 fevral 2012-ci il*)*
- *“PhD üzrə birgə dövlətlərarası proqramları: Aİ və qeyri-Aİ Ali Təhsil Müəssisələri arasında Boloniya prosesinə müvafiq olaraq bu proqramların anlayışları, siyasətləri və qaydaları”(2013-cü ildə keçirilməsi nəzərdə tutulur).*

Avropa İttifaqının *Tvininq proqramı* çərçivəsində icra edilən layihələr:

- *“Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı”*
- *“Azərbaycan Respublikasında peşə təhsilinin idarəolunması sahəsində keyfiyyətin və akkreditasiyanın gücləndirilməsi”.*

Azərbaycanda Milli Elmlər Akademiyası tərəfindən koordinasiya olunan elm sahəsində tədqiqatların dəstəklənməsinə istiqamətlənmiş Avropa İttifaqının 7-ci Çərçivə Proqramı üzrə bu günə qədər alınan nəticələr qeyri-qənaətbəxş sayıla bilər. Hazırda Azərbaycan 7-ci Çərçivə proqramında cəmi 15 layihə ilə iştirak edir və altı Şərq tərəfdaşlığı ölkələri arasında bu göstəriciyə görə beşinci yeri tutaraq, regionda Gürcüstan və Ermənistandan geri qalır.

2014-2020-ci illəri əhatə edəcək “Horizon 2020” (2020-ci il üçün üfüqlər) proqramının 80 mlrd. büdcəyə malik olması və hazırda tədqiqat və innovasiyalar üçün maliyyələşdirmə təmin edən müxtəlif proqramları özündə birləşdirməsi nəzərdə tutulur. Proqramın məqsədi elmi tədqiqat və bazar arasındakı maneələri aradan qaldırmaqla cəmiyyətdə dəyişiklikləri dəstəkləməsi olacaqdır. Proqram bütün dünya ölkələrinə açıq olacaq.

“Erasmus for All” (Hamı üçün Erasmus) proqramının 2014-cü ildə başlanması və mövcud yeddi proqramı (məsələn, Erasmus Mundus, Tempus, Alfa, Edulink, Leonardo da Vinci və s.) əvəz edərək təhsil, təlim, gənclər və idman sahəsində cari Aİ və beynəlxalq mexanizmləri özündə cəmləşdirməsi nəzərdə tutulur. Məqsəd qrantlar üçün müraciət prosesini asanlaşdırmaqdır. “Erasmus for All” proqramı məktəb təhsili daxil olmaqla, təhsil və təlimin bütün səviyyələrində müasirləşməyə (modernizasiya) xidmət edəcək. Proqram üç əsas hissədən ibarətdir: *fərdi şəxslər üçün təhsil mobilliyi, əməkdaşlıq və strateji islahatlara dəstək.* Bu proqramın büdcəsinin təxminən 70% artırılaraq, 19 mld. avroya çatdırılması nəzərdə tutulur. Hazırda Aİ parlamentində büdcə ilə bağlı müzakirələr davam edir.

Yuxarıda qeyd olunan proqramların Avropa tərəfdaşlığı ölkələrindən başqa digər qeyri-Aİ ölkələri üçün açıq olması nəticəsində tərəfimizdən bu proqramlarda iştirak etmək üçün təklif edəcək layihələr daha geniş rəqabətlə qarşılanacaq. Bu səbəbdən, hazırlanan layihələrin daha peşəkar səviyyədə hazırlanması və ən başlıcası, daha geniş sayda təqdim edilməsi tələb olunacaq.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlığının əsas istiqamətlərindən biri də ***İSESKO*** ilə əlaqələrin inkişaf etdirilməsidir. Bu əlaqələr İSESKO tərəfindən təşkil olunan seminar və konfranslar çərçivəsində daha geniş vüsət almışdır.

12-14 iyun 2012-ci il tarixlərində Bakıda “ISESKO-ya üzv olan Asiya Regionu ölkələrində yoxsulluğun aradan qaldırılması sahəsində siyasət” mövzusu üzrə Regional seminar keçirilmişdir. Seminarın əsas məqsədi ISESKO-ya üzv olan Asiya ölkələrində

yoxsulluğun aradan qaldırılması sahəsində mövcud proqramların, həyata keçirilmiş tədbirlərin müzakirəsi və müvafiq tövsiyələrin hazırlanmasıdır.

4-6 sentyabr 2012-ci il tarixlərində Bakıda “Savadlılıq səviyyəsinin artırılması sahəsində proqramların hazırlanması və həyata keçirilməsi” mövzusu üzrə regional ekspert görüşü keçirilmişdir. Tədbirin məqsədi təhsil sahəsində mərkəzi və yerli orqanların savadlılıq səviyyəsinin yüksəldilməsi üzrə proqramların işlənib hazırlanması və həyata keçirilməsində rolu ilə bağlı məsələlərin müzakirəsidir.

1-3 oktyabr 2012-ci il tarixlərində Bakıda Elmin təbliği sahəsində regional seminarın keçirilmişdir. Tədbirin əsas məqsədi elmin biliyə əsaslanan iqtisadiyyatın inkişafına töhfəsi ilə bağlı məsələlərə geniş ictimaiyyətin marağını cəlb etməkdir.

20-21 noyabr 2012-ci il tarixlərində Xartum şəhərində İslam ölkələrinin Ali təhsil və elmi tədqiqat nazirlərinin altıncı Konfransı keçirilmişdir. Tədbirdə Azərbaycan tərəfindən təhsil nazirinin müavini Qulu Novruzov və Beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Azad Axundov iştirak etmişdir.

“Parlaq gələcək naminə elm və texnologiyalarının inkişafında ali təhsilin rolu” mövzusu üzrə keçirilmiş konfransın əsas məqsədi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrdə ali təhsilin keyfiyyətinin və elmi tədqiqatlarının səmərəliyinin artırılması məqsədi ilə İslam ölkələrində ali təhsil sistemlərinin gələcək inkişafı və eyni zamanda dünyanın müxtəlif regionları ilə ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinin müzakirəsi olmuşdur. Konfrans plenar iclaslarda müzakirələr şəklində keçirilmişdir. İslam ölkələri bu tədbirdə Təhsil nazirləri və nazir müavinləri səviyyəsində təmsil olunmuşdular. Konfransda, həmçinin İSESCO, İƏT, YUNESKO və digər nüfuzlu təşkilatların nümayəndələri iştirak edirdilər.

Tədbir zamanı aşağıdakı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır:

- İslam ölkələrinin sosial və iqtisadi inkişafında ali təhsilinin rolu və onun gələcək inkişaf istiqamətləri;
- ali təhsil müəssisələrində elmi tədqiqatların səmərəliliyi: nailiyyətlər, problemlər və bu problemlərin həlli yolları;
- ali təhsilin keyfiyyətinin təmin olunması;
- ali təhsil sistemlərinin idarəedilməsi və maliyyələşdirilməsi;
- Avropa ölkələrində məşğulluq probleminin həllində ali təhsilin rolu;
- İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər arasında 2012-2014-cü illər üzrə Təhsil sahəsində Əməkdaşlıq Proqramı;
- ali təhsil sahəsində beynəlxalq əməkdaşlıq;
- konfransın bəyannaməsinin məzmun və məqsədləri;
- təhsil sahəsində yeni texnologiyaların və innovasiyaların tətbiqi;
- konfransın yekun hesabatının müzakirəsi.

Azərbaycanın ali təhsil müəssisələrində İslam ölkələrindən 2000-dən artıq tələbə təhsil alır. Bu ölkələr sırasına İran, Türkmənistan, Pakistan, Misir, Suriya, Nigeriya, İordaniya, Əfqanıstan, Qırğızıstan, Banqladeş və s. daxildir. Eyni zamanda 310-dan artıq Azərbaycanlı tələbə Türkiyə Respublikasında, 3 nəfər tələbə isə Malayziyada Dövlət Proqramı çərçivəsində təhsillərini uğurla davam etdirirlər.

Eyni zamanda 2013-cü ilin aprel ayında Bakıda İSESKO-ya üzv ölkələrin əlaqələndirici şəxslərinin iclasının keçirilməsi planlaşdırılır.

**5.Təhsil sahəsində xarici ölkələrlə ikitərəfli əməkdaşlıq.**

Azərbaycan Respublikası Təhsil Nazirliyi 2012-ci ildə Beynəlxalq əməkdaşlıq sahəsində müxtəlif ölkələrin Təhsil Nazirlikləri ilə əməkdaşlıq əlaqələrinin davam etdirir. Bu əlaqələr sırasına Litva Respublikası ilə təhsil sahəsində əlaqələr xüsusi yer tutur.

İki ölkə arasında təhsil sahəsində əlaqələr ikitərəfli görüşlər və qarşılıqlı səfərlər çərçivəsində davam etdirilir.

10 may 2012-ci il tarixində Bakıda Heydər Əliyev Mərkəzinin açılış mərasimində Litva Respublikasının Azərbaycandakı səfiri Kestutis Kudzmanas təhsil sahəsindəki göstərdiyi fəaliyyətinə görə Heydər Əliyev Fondunun təsis etdiyi "Qızıl Çinar" beynəlxalq mükafatı ilə təltif olunub.

Cari ilin 15-22 iyun tarixlərində Litva Respublikasının Elm və Təhsil naziri Gintatas Stepanoviçiyusun dəvəti ilə Azərbaycan Respublikası Təhsil naziri Misir Mərdanovun rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkədə səfərdə olmuşdur.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Litva Respublikasının Elm və Təhsil Nazirliyi, Vilnüs Edukologiya Universiteti, Vilnüs Universiteti, Vilnüs şəhərində yerləşən "Litvalılar evi" gimnaziyasında olmuş və təhsil sahəsində ikitərəfli əməkdaşlıq istiqamətləri müzakirə olunmuşdur.

Litva Respublikasının Elm və Təhsil naziri Gintatas Stepanoviçiyus ilə keçirilən görüş zamanı hazırda Litvanın müxtəlif ali təhsil müəssisələrində 50-dən artıq azərbaycanlı tələbənin təhsil aldığı barədə ətraflı məlumat verildi və texniki peşə sahəsində əməkdaşlıq, orta məktəblər arasında qarşılıqlı əlaqələr, beynəlxalq proqram və layihələrin birgə həyata keçirilməsi, elmi konfrans və simpoziumların təşkili üzrə müzakirələr aparıldı.

Səfər zamanı Litva tərəfindən 2013-2014 cü tədris ilindən 3 azərbaycanlı tələbə üçün 350 avro miqdarında təqaüd ayrılacağının nəzərdə tutulduğu qeyd edildi.

İki ölkə arasında təhsil sahəsində əlaqələr ticari-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyanın iclas protokolları çərçivəsində də davam etdirilir.

Bu günədək iki ölkə arasında 2 iclas protokolu imzalanmışdır. İki ölkə arasında hazırlanmış İkitərəfli Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 2-ci iclas Protokolunun "Mədəniyyət, turizm və təhsil sahələrində əməkdaşlıq" başlıqlı 6-cı bölməsində təhsillə bağlı məsələlər öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2007-ci il tarixli 2090 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan gənclərinin xaricdə təhsil almaları məqsədi ilə seçilmiş ali təhsil müəssisələrinin siyahısı"na Litvanın 2 ali təhsil müəssisəsinin ***(Kaunas Texnologiya Universiteti, Vilnüs Universiteti)*** adları daxil edilmişdir. 2012-2013-cü tədris ilindən etibarən Dövlət Proqramı çərçivəsində 7 tələbədən 6-sı Kaunas Texnologiya Universitetində, 1 nəfəri isə Vilnüs Universitetində təhsillərini davam etdirəcəklər.

Qeyd olunanlarla yanaşı hazırda öz vəsaitləri hesabına Litva Respublikasının ali təhsil müəssisələrində təhsil alan Azərbaycan vətəndaşlarının sayı artmaqdadır.

Azərbaycan Respublikasının təhsil sahəsində əməkdaşlıq etdiyi ölkələr sırasında İtaliya xüsusilə vurğulanmalıdır. Bu əməkdaşlıq qarşılıqlı səfərlər çərçivəsində aparılır.

01-08 iyun 2012-ci il tarixlərində İtaliyanın təhsil nazirinin dəvəti ilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin nümayəndə heyəti ali təhsil təcrübəsi ilə tanışlıq,

əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və birgə layihələr üzrə təkliflərin müzakirə olunması məqsədi ilə İtaliyada rəsmi səfərdə olmuşdur. Səfər çərçivəsində Təhsil naziri Misir Mərdanovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliyanın Təhsil Nazirliyində, Avropanın ən qədim təhsil ocaqlarından olan La Sapienza Universitetində olmuş, və təhsil sahəsində ikitərəfli əməkdaşlıq istiqamətləri müzakirə olunmuşdur. Görüşdə Azərbaycan və İtaliya arasında təhsil üzrə birgə işçi qrupunun yaradılması, təhsil sənədlərinin qarşılıqlı tanınması məsələləri də müzakirə edildi.

31 oktyabr – 1 noyabr 2012-ci il tarixlərində Bakıda “Azərbaycan ilə İtaliya arasında təhsil sahəsində əməkdaşlıq: mövcud vəziyyət və perspektivlər” mövzusu üzrə konfrans keçirilmişdir.

Konfransın əsas məqsədi Azərbaycan ilə İtaliya arasında təhsil sahəsində əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivlərin müəyyənləşdirilməsi ilə bağlı məsələlərin müzakirəsidir.

Tədbirdə 120 iştirakçının, o cümlədən İtaliyanın Təhsil nazirliyinin yüksək rütbəli əməkdaşlarının və təhsil müəssisələrinin 21 nəfər nümayəndəsi və Azərbaycanın ali təhsil müəssisələrinin nümayəndələri iştirak etmişdir.

Eyni zamanda hər iki ölkənin ali təhsil müəssisələri arasında da əməkdaşlıq əlaqələri qurulmuşdur. İtaliyanın Perucia Əcnəbilər Universiteti və Siena Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında bakalavr və magistr pillələri üzrə mübadilənin həyata keçirilməsi üçün saziş imzalanmışdır. Saziş çərçivəsində Azərbaycan Dillər Universitetinin tələbələri İtaliya universitetlərində təhsil almaq üçün göndərilir və həmin universitetlərdən mütəxəssislər dəvət edilir. Bununla yanaşı, Milan Tərcüməçilik İnstitutu “Yazılı və şifahi tərcümənin tədrisində islahatlar” adlı Tempus layihəsində ADU ilə sıx əməkdaşlıq edir.

2006-2007-ci tədris ilindən etibarən İtaliya Hökumətinin və İtaliyanın Azərbaycandakı səfirliyinin dəstəyi ilə hər il Azərbaycan Dillər Universitetinə italyan dilini tədris etmək üçün İtaliyadan müəllim, həmçinin xeyli ədəbiyyat və digər tədris materialları göndərilir. Bu əlaqələrin inkişafının təməli 2001-ci ildə Azərbaycan Dillər Universitetində “İtalyan dili” kafedrası açılması və universitetdə italyan dilinin tədrisinə başlanılması ilə qoyulmuşdur.

Eyni zamanda Azərbaycan Tibb Universiteti ilə İtaliyanın “La Sapienza”, Genoa Universiteti, Milan Milli Onkologiya Universiteti, Aralıq Dənizi Hemotologiya İnstitutu arasında əməkdaşlıq haqqında sazişlər imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 16 aprel tarixli, 2090 nömrəli sərəncamı ilə təsdiq edilmiş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində kadr hazırlığını nəzərdə tutan ali təhsil müəssisələri siyahısına İtaliyanın 21 ali təhsil müəssisəsinin adı daxil edilmişdir.

Qeyd olunan Dövlət Proqramı çərçivəsində İtaliyanın ali təhsil müəssisələrindən 3 nəfər məzun olmuşdur. Hazırda bu Proqram çərçivəsində İtaliyanın ali təhsil müəssisələrində 4 nəfər azərbaycanlı gənc magistratura səviyyəsi üzrə təhsillərini uğurla davam etdirirlər.

Səfər çərçivəsində nümayəndə heyətimiz Roma Mərkəzi Parkında ucaldılmış dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət etdi.

Azərbaycan Respublikasının təhsil sahəsində əməkdaşlıq etdiyi digər ölkə Çin Xalq Respublikasıdır. Bu əlaqələr qarşılıqlı səfərlər, tələbə mübadiləsi, və s. çərçivəsində həyata keçirilməkdədir.

Bu günədək Çin Xalq Respublikası universitetlərində 17 nəfər məzun olmuşdur. Bu məzunlar sırasında Kərimov Rəşad (Azərbaycan Respublikası Prezidenti Administrasiyası yanında Strateji Araşdırmalar Mərkəzi), Samir Məmmədov (Azərbaycan Respublikası Xarici

İşlər Nazirliyi), Emin Qurbanov (Neftçilər Xəstəxanası, kardioloq), Orxan Hacıyev (Müdafiə Sənayesi Nazirliyi), Nurlan Əzimov ( Çinin "ZTİ" Telekomunikasiya Şirkətinin Azərbaycan filialı), Elşad Paşayev ("AZİNKO" şirkətinin Şanxay təmsilçisi) və s. gənclər hazırda Azərbaycanın dövlət orqanlarında və qeyri-dövlət strukturlarında müvəffəqiyyətlə çalışır.

Qüvvədə olan müvafiq Saziş çərçivəsində hazırda Çin Xalq Respublikasının 16 nəfər vətəndaşı müxtəlif ixtisaslar üzrə Azərbaycan tərəfinin təqaüdləri hesabına respublikamızın ali məktəblərində ödənişsiz əsaslarla təhsil alır. Hazırda respublikamızda cəmi 207 nəfər Çin vətəndaşı təhsil alır ki, bunların 155 nəfəri Azərbaycan Dövlət Neft Akademiyasının, 25 nəfəri Bakı Slavyan Universitetinin və 7 nəfəri isə Bakı Dövlət Universitetinin tələbəsidir.

Eyni zamanda Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti ilə Çin xalq Respublikasının bir sıra ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələri qurulmuş və universitetlərarası saziş və protokollar imzalanmışdır.

İki ölkə arasında əməkdaşlığın genişləndirilməsi məqsədi ilə 13 iyul 2012-ci il tarixində Bakı şəhərində "Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Təhsil Nazirliyi arasında 2012-2015-ci illərdə təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır.

Bütövlükdə 2012-ci ildə xarici ölkələrlə təhsil sahəsində 4 Saziş imzalanmışdır. Bu ölkələr sırasına Çin Xalq Respublikası, Macarıstan, Tacikistan və Bosniya və Herseqovina daxildir.

Bununla yanaşı Avstriya və Makedoniya ilə təhsil sahəsində ikitərəfli Sazişin imzalanması istiqamətində addımlar atılmaqdadır.

## 6. Təhsil Nazirliyi əməkdaşlarının xarici ölkələrə səfərləri.

Cari ildə Təhsil Nazirliyinin ümumilikdə əməkdaşlarımızın ezam olunduğu ölkələr Moldova, Türkmənistan, Malayziya, Almaniya, İtaliya, Qırğızıstan, Bolqarıstan, Gürcüstan, Qətər, Türkiyə, Litva, Belçika, Almaniya, Fransa, Braziliya, Böyük Britaniya, Hollandiya, Səudiyyə Ərəbistanı, Şimali Kipr, Finlandiya, Birləşmiş Ərəb Əmirlikləri, Danimarka, Sudan, Banqladeş, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Slovakiya, Latviya, Macarıstan, İsveçrə, Rumıniya, Koreya, Sinqapur, Belarus və ABŞ-dır. 2012-ci ildə Təhsil Nazirliyi əməkdaşlarının ezamiyyə səfərlərinin ümumi sayı 59-dur.

2011-ci ildə təhsil naziri Misir Mərdanovun rəhbərlik etdiyi nümayəndə heyəti Almaniya, Macarıstan, İsveçrə, İtaliya, Litva, Böyük Britaniya, Özbəkistan və Türkiyədə ezamiyyədə olmuşdur. Bu səfərlər Türkiyədə keçirilmiş 15-ci Avrasiya İqtisadi Sammitində iştirak, Özbəkistanda keçirilmiş "Təhsilli və intellektual nəslin hazırlığı - ölkənin davamlı inkişafı və müasirləşməsində mühüm şərti" adlı beynəlxalq konfransda iştirak, Böyük Britaniyada keçirilmiş Ümumdünya Təhsil Forumunda iştirak, Macarıstanda keçirilmiş Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Tələbələrin Beynəlxalq Forumunun təşkilatçılığı ilə "Mən gənc səfirəm" mövzusunda forumda iştirak, "Azərbaycan Respublikasında kənd təsərrüfatı sahəsində ilkin peşə təhsilinin inkişafı" üzrə Avropa İttifaqının Tvininq layihəsi çərçivəsində tədbirdə iştirak, Litva, İtaliya, İsveçrə təhsil sistemi ilə tanış olmaq və ali təhsil və elmi-tədqiqat sahəsində qarşılıqlı əməkdaşlıq imkanlarının müzakirəsi məqsədi ilə təşkil edilmişdir.

Yuxarıda qeyd olunmuş səfərlərin ümumilikdə 17-si bilavasitə Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşlarının xarici ölkələrə ezamiyyələri ilə bağlı olmuşdur. Bu ezamiyyələr əsasən İSESKO, Avropa Şurası və Avropa İttifaqının müxtəlif tədbir, layihə və proqramları, Avropa Şurasının təhsil və ali təhsil üzrə Rəhbər Komitələrinin iclasları, Avropa Şurasının Pestalotsi Proqramı, Avropa Komissiyasının Tempus proqramı, birgə Hökumətlərarası Komissiyaların işi, müxtəlif beynəlxalq konfranslar və Nazirliyin nümayəndə heyətinin tərkibində müxtəlif səfərlərdə iştirak məqsədi ilə təşkil olunmuş səfərlərdir.

**7. Perspektiv fəaliyyət istiqamətləri.**

Beynəlxalq əlaqələr şöbəsi 2012-ci ildə aşağıdakı prioritet istiqamətlər üzrə fəaliyyət göstərəcəkdir:

1. Beynəlxalq təşkilatlarla təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi;
2. Avropa İttifaqı, Avropa Şurası, YUNESKO, İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatlar ilə birgə layihələrin həyata keçirilməsi;
3. Xarici ölkələr və beynəlxalq təşkilatlarla mövcud olan təhsil sahəsində sazişlərin və protokolların səmərəli şəkildə həyata keçirilməsi və digər ölkələrlə bu Sazişlərin layihələrinin hazırlanması;
4. Xarici təşkilatlarla Azərbaycanda birgə konfransların, seminarların keçirilməsi;
5. Xaricdə keçirilən beynəlxalq tədbirlərdə Nazirliyin əməkdaşlarının iştirakının təmin edilməsi;
6. Xarici ölkələrin və beynəlxalq təşkilatların Azərbaycanda təhsil sahəsində həyata keçirilən islahatlar haqqında məlumatlandırılması;
7. Azərbaycan təhsil sisteminə əlavə sərmayələrin cəlb olunması məqsədilə xarici ölkələrlə və donor təşkilatlarla işin gücləndirilməsi;
8. Azərbaycanın ali təhsil müəssisələrində çalışan professor-müəllim heyətinin xaricdə keçirilən beynəlxalq tədbirlərdə iştirakının təmin edilməsi;
9. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində seçilən ali təhsil müəssisələrinin və müvafiq ixtisasların yenidən hazırlanması və tədbirlərin həyata keçirilməsi;
10. Avropa İttifaqının Erasmus-Mundus, TEMPUS və Jan Mone proqramlarının imkanlarından geniş istifadə olunması;
11. Azərbaycanın orta təhsil müəssisələrinin Avropa İttifaqının e-twinninq proqramına qoşulmasının təmin edilməsi;
12. Təhsil Nazirliyi tərəfindən hazırlanmış Xarici ölkə və beynəlxalq təşkilatlarla təhsil sahəsində əməkdaşlıq haqqında Saziş və protokol layihələrinin imzalanmasının sürətləndirilməsi;
13. Xarici ölkələr tərəfindən təklif olunan təqaüd proqramlarında Azərbaycan gənclərinin iştirakının təmin edilməsi.
14. Avropa İttifaqı ilə texniki peşə təhsili sahəsində əməkdaşlıq;
15. Azərbaycanda Milli Əlaqələndirici funksiyası AMEA tərəfindən daşınan Avropa İttifaqının 7-ci Çərçivə Proqramının imkanlarından geniş istifadə olunması:
    - Azərbaycan ali təhsil müəssisələrinin 7-ci ÇP-də yaxından iştirakı üçün müvafiq tədbirlərin görülməsi və Azərbaycan və Avropa universitetlərinin birgə tədqiqat keçirmələrinin təmin edilməsi

16. Ali təhsil müəssisələri nəzdində texnoparkların yaradılmasına və fəaliyyətinə Avropa İttifaqının dəstəyi;
17. Doktorantura sahəsində mobilliyin təmin edilməsi;
18. 2013-cü ildən sonra Azərbaycanda həyata keçirilən təhsil islahatlarının davam etdirilməsi məqsədi ilə Avropa İttifaqının texniki yardım və resurslarından istifadə olunması (Dünya Bankı ilə layihə bitdikdən sonra);
19. Avropa İttifaqı layihələrindən istifadə və layihə idarə edilməsi bacarıqlarının artırılması ilə əlaqədar təlimlərin keçirilməsi;
20. Avropa İttifaqı ilə imzalanacaq Assosiativ Saziş çərçivəsində təhsil sahəsində əməkdaşlığın möhkəmləndirilməsi;
21. Avropa İttifaqının Tvininq, TAİEX, Siqma alətlərindən istifadə etməklə təhsil sahəsində Azərbaycan təhsilinin ehtiyaclarına uyğun layihələrin həyata keçirilməsi;
22. Azərbaycanın orta təhsil müəssisələrinin Avropa İttifaqının e-twinninq proqramına qoşulmasının təmin edilməsi.